**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR İSLAMŞÜNASLIQDA "HƏQİQİ İSLAM" KONSEPSİYASI

İxtisas: 7213.01– Dinşünaslıq

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Dürdanə Şükür qızı Cəfərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və İctimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Esmeralda Yusif qızı Həsənova** |
| Rəsmi opponentlər: | Filologiya üzrə elmlər doktoru, professor<br>**Nəsrulla Naib oğlu Məmmədov** |
| | İlahiyyat üzrə fəlsəfə doktoru<br>**Ceyhun Valeh oğlu Məmmədov** |
| | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**İlkin Ənvər oğlu Əlimuradov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03–Birdəfəlik Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | Fəlsəfə elmləri doktoru, dosent<br>**Zəkiyyə Ağababa qızı Əbilova** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | İlahiyyat üzrə fəlsəfə doktoru, dosent<br>**Məmmədəli Allahverdi oğlu Babaşlı** |
| Elmi seminarın sədri: ________________ | Fəlsəfə elmləri doktoru, professor<br>**Əsədulla Cuci oğlu Qurbanov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsrin sonu XX əsrin əvvəllərində müxtəlif müsəlman ölkələrində "həqiqi islam"ın yalnız Qurandan ibarət olduğu, hədislərə və sünnəyə ehtiyac qalmadığı fikrini irəli sürən bir sıra cərəyan və hərəkatlar meydana çıxdı. Belə cərəyan və hərəkatların nümayəndələri özlərini "həqiqi islam"ın və ya "quran islamı"nın təmsilçiləri olaraq görürdülər. Onlar hesab edirdilər ki, erkən İslam dövrünün müsəlmanları yalnız Quranı öz rəhbərlərinə çevirdiklərinə görə uğur qazanmışlar, hədisin Quranla yanaşı istinad mənbəyinə çevrildiyi andan müsəlman dünyasında tənəzzül başlamışdır.

Hədis və sünnəni kənara qoyaraq təkcə Quran mətninə əsaslanan yeni bir İslam anlayışını formalaşdırmağa çalışan belə cərəyanlar müxtəlif amillərin təsiri altında meydana gəlmişdir.

Qurançılıq anlayışının hazırkı daşıdığı mənada meydana çıxması XIX əsrin sonlarında müsəlman dünyasında yaşanan ictimai siyasi proseslərlə sıx bağlıdır. XIX əsrdə bir tərəfdən Qərbin istər siyasi, istərsə də elmi-texniki sahədə nailiyyətləri bunun müqabilində isə müsəlman dünyasında uzun sürən durğunluq müsəlman ziyalı və intellektuallarını vəziyyətdən çıxış yolları axtarmağa sövq etdi.

Bir qrup ziyalı Qərbin elmi-texniki nailiyyətlərini mənimsəmək, amma əxlaqi dəyərlərinə əsla yol verməmək və ənənəvi dini düşüncə və inancı hər növ dəyişiklikdən uzaq tutmaq, digər bir qrup isə Qərbin yüksəlişinə səbəb olan hər bir şeyin "həqiqi islam"da – İslamın tarixi axar içərisində qarışmamış saf halında var olduğunu, bunun üçün İslamı güclü bir mədəniyyət olaraq yenidən dirçəldilməsinin zəruriliyi barədə fikirlər irəli sürdülər

Əsasən, Qərbdə təhsil almış digər bir dəstə ziyalı isə XIX əsrin sonlarından başlayaraq yayılan Avropa dəyərlərinə vurğunluqları səbəbi ilə bu dəyərlərin böyük təsirinə məruz qalmışlar. Onlar bu təsir altında islam həqiqətlərini izah etmək məqsədi ilə Qərb dəyərləri ilə İslam düşüncəsini bir-birilə sintez etməyə cəhd göstərmişlər. Beləliklə onlar müsəlmanların geri qalmasının, onların

ətalət və cəhalətinin səbəbini ənənəvi din anlayışında görürdülər. Belə hesab edirdilər ki, ənənəvi din müsəlmanların tərəqqisi yolunda bir maneədir və mövcud vəziyyətdə islam elmləri istər mətn, istərsə metod baxımından dövrün tələblərinə cavab verə bilmir və dini düşüncəyə yeni bir istiqamət vermək lazımdır. Əslində bu, islam elmlərinin Qərb düşüncə və fəlsəfəsinin əsasında izah olunması və İslamı modernizmin dəyərləri ilə uyğunlaşdırma cəhdi idi.

Qurandan başqa heç bir qaynağın mötəbər sayılmaması və ümumiyyətlə Qurandan savayı hər hansı bir mənbə axtarılmasının Quranın özünə zidd olduğu, Qurandakı bəzi əhkam ayələrinin və konkret hökmlərin təkcə nazil olduğu həmin dövr üçün aktual olub, müasir dövrə şamil edilməməsi, Quran qissələrinin, yaşanmış real hadisələr olmadığının, Quranda nəsx məsələsinin baş vermədiyinin iddia edilməsi, təbii ki, müsəlman dünyasında birmənalı qarşılanmamışdır. Hindistan yarımadasında Seyyid Əhməd Xan (v.1898) və Çerağ Əli (v.1895) tərəfindən ilk təməlləri qoyulan dini hökmlər üçün yalnız Quranın əsas götürüldüyü yanaşma təkmilləşdirilərək, 1902-ci ildə Lahorda Abdullah Çəkraləvi (v.1914) tərəfindən "Əhluz-zikr vəl-Quran" adıyla təşkilat halına salınmışdır. Seyyid Əhməd Xanın təmsil etdiyi düşüncəni müdafiə edənlər əvvəllər, "munkiri hədis" (hədis inkarçısı) və "neyçiri" (naturalist) kimi adlarla, Çəkraləvidən başlayaraq isə "əhli-Quran" olaraq tanınmışlar. "Quraniyyun" və ya "əhli-Quran" kimi bilinən hərəkata təhsilli kütlə istisna olmaqla ümum camaat çox da rəğbət göstərməmişdir. Əhməddin Amritsari (v.1936), Məhəmməd Əsləm Cəracpuri (v.1955) və Qulam Əhməd Pərviz (v.1985) "Quraniyyun" cərəyanının həmin dövrdə öndə gələn nümayəndələri olmuşlar. Bənzər fikirlər və yanaşmalar Misirdə Məhəmməd Tofiq Sidqi (v. 1920) və Əhməd Sübhi Mənsur (v.1949) kimi şəxslər tərəfindən də dilə gətirilmişdir. Misirdə Məhəmməd Tofiq Sidqi ilk dəfə özü və onunla həmfikir olanlar barədə "Nəhnu Quraniyyun" (Biz Qurançılarıq) ifadəsini işlətmişdir[1].

Biz də bu tədqiqat işində bir ümumiləşdirmə apararaq həm XIX əsrdə Hindistan yarımadasında, "Əhluz-zikr vəl-Quran" adıyla

---

[1] صدقى، توفيق محمد، الاسلام هو القرآن وحده// المنار، المجلد ٩ ، ١٩٠٦، ٥١٥-٥٢٤

təşkilatlanan cərəyanın nümayəndələrini, həm eyni dövrdə Misirdə Tofiq Sidqi ilə başlayan “İslam yalnız Qurandan ibarətdir” iddiasının tərəfdarlarını, həm də müasir dövrdə müxtəlif müsəlman ölkələrində “Yalnız Quran” ideyaları ilə çıxış edən və “Quranilər” olaraq tanınan qrupu dilimizə uyğun olaraq Qurançılar adlandıraraq bəhs edəcəyik.

Mövzunun aktuallığına gəlincə, bu gün dünyanın müxtəlif yerlərində İslam dininin əsl mahiyyətindən uzaqlaşdırılaraq onu yanlış təqdim etmə cəhdlərinin şahidi oluruq və yeni-yeni cərəyanların meydana gəldiyini görürük. Meydana gələn hərəkatların heç biri özünün İslam daxilində sadəcə dini-siyasi hərəkat olması ilə nəinki razılaşmır, hətta məhz onun “əsl islamı” təmsil etdiyini iddia edərək, İslama münasibətdə öz xüsusi mövqeyindən çıxış edir. Belə ziddiyyətlər hər şeydən əvvəl islam cəmiyyətində parçalanma meyilləri və fikir ayrılıqlarında özünü biruzə verir, vahid bir dünyagörüşü kimi görməyə alışdığımız İslam daxili parçalanmaya uğrayır. [2] İslamdaxili birliyi zəiflətməyə yönəlmiş dağıdıcı fəaliyyətlərinin qarşısını almaq üçün belə hərəkat və cərəyanları tanımaq, araşdırmaq və təhlil etmək xüsusi əhəmiyyət kəsb edir.

Mövzunun Azərbaycan üçün aktuallığının səbəblərindən biri də son dövrlər xalqımızın ictimai-siyasi həyatında İslam dininin rolunun güclənməsi ilə bağlıdır. Müxtəlif müsəlman ölkələrindən bir-birindən fərqli İslam modellərini ölkəmizə ixrac etmə cəhdlərinin artmasının qarşısının alınması üçün “əsl İslam” adı ilə çıxış edən cərəyanları tanımaq son dərəcə önəmlidir.

Tədqiq etdiyimiz problem istər sovet dövründə, istərsə də müstəqillik illərində azərbaycanlı tədqiqatçılar tərəfindən ümumiyyətlə öyrənilməmişdir. Ölkəmizin hüdudlarından kənarda isə qurançılıq mövzusunda əksəriyyəti rəddiyyə olmaqla çox sayda kitab və məqalə yazılmışdır .

Hindistandakı Qurançılar cərəyanı barəsində, qələmə alınmış əsərlər arasında ilk olaraq “Əlquraniyyun və şubuhətuhum həvləs-

---

[2] Baxşəliyeva G. B. Müasir islamın əsas ideya cərəyanları, http://azpress.az/index.php?lang=az&sectionid=news&id=1675

sunnə” (“Qurançılar və onların sünnə barəsində şübhələri”) [3] tədqiqatını qeyd etmək olar. Müəllifin əslən pakistanlı olması və urdu dilini bilməsi tədqiq olunan mövzunun dərindən araşdırılması baxımından əhəmiyyət kəsb edir. Taif Ümmül-Qura Universitetinın müəllimi olan Xadimhüseyn İlahibəxşin ərəb dilində yazdığı bu əsər, Qurançılar cərəyanı barəsində yazılmış sistematik bir işdir. Ancaq əsər daha cox qurançılara cavab olaraq rəddiyyə üslubunda qələmə alınıb. Ərəb dilində yazılmış əsərlər arasında Mahmud Muhəmməd Məzruənin “Şubuhətul quraniyyin həvləs sunnətin nəbəvi” (Qurançıların peyğəmbər sünnəsi barəsində şübhələri ), [4] Ə.M.M.Yusifin “Əlquraniyyun fil Mısr və məvqiful İslami minhum” (Misir qurançılar və İslamın onlara yanaşması) [5] adlı tədqiqatlarını qeyd etmək olar. Bu əsərlər də rəddiyyə üslubunda və cavab olaraq yazılmışdır. Camal ibn Muhəmməd ibn Əhməd Hacərin “Əlquraniyyun ərəb və məvqifuhum fit təfsir ”(Ərəb qurançıları və onların təfsirdəki yanaşmaları) adlı monoqrafiyası isə Sünnəni inkar edənlərin təfsirdəki metodlarından və yanaşmalarından bəhs edir. [6]

Digər bir monoqrafiya isə Abdulhəmid Birışık tərəfindən Marmara Universiteti nəzdində doktorluq dissertasiyası olaraq hazırlanan “Hind Altkıtası Düşünce ve Tefsir Ekolları” adlı əsəridir[7]. Birışık özü də qeyd etdiyi kimi o, əsərində qurançılar cərəyanı və bu cərəyanın əsas prinsipləri ilə əlaqədar bir çox məlumatları əldə etməkdə İlahibəxşin əsərindən geniş şəkildə istifadə etmişdir. Ancaq İlahibəxşin əsərində mövcud olmayan bu cərəyana mənsub müfəssirlərin yazdıqları təfsirlər və bu təfsirlərin araşdırılması və sənədləri baxımından Birışıkın əsəri olduqca zəngindir.

Ümumiyyətlə, qurançılıq ideyaları barədə son dövrlər yazılmış

---

[3] الهي بخش، خادم حسين، القرآنيون و شبهاتهم حول السنة، طائف مكتبةالصديق١٤٢١ ه.

[4] مزروعه، محمود محمد، شبهات القرانيون حول السنة النبويه، مجمع الملك فهد لطباعة المصحف الشريف،٢٠١٢

[5] محمد يوسف، عبد الرحمن محمد، القرآنيون في مصر وموقف الإسلام منهم، البيا ن ، قاهره ، ٢٠١٢

[6] أحمد هاجر ، جمال بن محمد ، القرآنيون العرب وموقفهم من التفسير،دار التفسير، جدة، **٢٠١٥**

[7] Birışık A. Hind Altkıtası Düşüncə ve Tefsir ekolleri. İstanbul: İnsan Yayınları, 2012, 448 s.

əsərlər arasında Mustafa Öztürkün "Çağdaş İslam Düşüncesi ve Kurançılık" adlanan monoqrafiyasını xüsusi qeyd etmək olar. Əsərdə "müasir islam fikrinə ümumi bir baxış" adlanan birinci fəsildən sonra ikinci fəsildə müasir bir termin olan qurançılıq termini araşdırılmış və Türkiyə üçün daha aktual olan "Mealçılıq" məsələsi üzərində xüsusi dayanılmışdır.[8]

Qərb şərqşünasları tərəfindən bu sahədə yazılan əsərlər arasında Florida Universitetinin professoru Aişe Musanın "The Quranists" adlı məqaləsində müasir qurançılar tədqiq olunub.[9] Oksford Universitetinin tədqiqatçısı Daniel Braunun "Rethinking tradition in modern Islamic thought" (Müasir İslam fikrində hədisin yenidən nəzərdən keçirilməsi) adlı əsərində isə daha çox hədisin legitimlik məsələsi araşdırılır.[10] Bundan başqa, A. Musanın "Hadith as scripture: discussions on the authority of prophetic traditions in Islam" (Hədis yazılı mənbə kimi: Peyğəmbər hədislərinin Islamda legitimliyi haqqında diskussiyalar") kitabını qeyd etmək olar.[11]

Yuxarıda qeyd etdiklərimizdən belə qənaət hasil olur ki, "Müasir islamşünaslıqda həqiqi islam konsepsiyası" mövzusu ayrıca tədqiqat obyekti olaraq öyrənilməyib və hazırkı dissertasiya işi bu sahədə atılmış ilk mühüm addım hesab oluna bilər.

**Tədqiqatın obyekti və predmeti.** Müasir islamşünaslıqda "həqiqi islam" konsepsiyası dissertasiya işinin əsas obyektidir. Bu konsepsiya ilə çıxış edən cərəyan və hərəkatların müqayisəli təhlili isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin qarşısında qoyulmuş məqsəd və vəzifələr aşağıdakılardan ibarətdir:

- Erkən İslam dövründən başlayaraq Quranla kifayətlənmənin tarixi köklərini araşdırmaq, ilkin təzahürləri və onu yaradan faktorları müəyyənləşdimək;

---

[8] Öztürk M. Çağdaş İslam düşüncesi ve Kurançılık, Ankara: Ankara Okulu Yayınları, 2013, 320 s.

[9] Musa Y, A. The Qur'anists // Religion Compass, 4/1,2010, p. 12-21.

[10] Brown W.Daniel, Rethinking tradition in modern Islamic thought. Cambridge, Cambridge University Press, 1996. 185p.

[11] Musa Y. A. Hadith as a scripture: discussions on the authority of prophetic traditions in Islam, New York, Palgrave Macmillan, 2008, 208 p.

- Qurançılığın yarandığı tarixi şəraiti, hansı ictimai, siyasi, mədəni faktorların təsiri altında formalaşdığını öyrənmək;

- “Həqiqi İslam” adı ilə meydana gələn hərəkat və cərəyanlara həm Avropa şərqşünaslarının, həm də müsəlman ölkə alim və tədqiqatçılarının yanaşmasını təhlil etmək;

- Qurançıların əsas prinsipləri, səciyyəvi xüsusiyyətlərini təsbit etmək və aralarındakı mövcud fikir ayrılıqlarının elmi-tənqidi təhlilini vermək;

- Müasir dövrdə müxtəlif müsəlman ölkələrində qurançılar cərəyanının əsas təmsilçilərini və onların fəaliyyət aspektlərini tədqiq etmək;

- Müasir dünyada qurançılar cərəyanının yayılma tendensiyası, mərkəzləri və internet resurslarını öyrənmək;

- Müasir dövrdə İslam dünyasındakı ictimai-siyasi proseslərə bu və ya digər dərəcədə təsir imkanlarını araşdırmaq;

- Bu cərəyanın təmsilçilərinin ölkəmizdə təsir imkanlarını təsbit etmək.

**Tədqiqatın nəzəri metodoloji əsası:** Tədqiqat mövzusu müasir islamşünaslıqda “həqiqi islam” konsepsiyası olduğu üçün bu konsepsiya ilə çıxış edən cərəyan və hərəkatlar tarixi xronologiya və coğrafi tədqiq olunmuş, problemin həlli zamanı sistemli kompleks yanaşma və tarixi-müqayisəli metodlardan istifadə edilmişdir. Müəllif mövzunu dinşünaslıq elminin əsas prinsipləri çərçivəsində araşdırmışdır.

**Tədqiqatın elmi yeniliyi.** İşin ümumilikdə başlıca yeniliyini dini hökmlərin qaynağını Quranla məhdudlaşdırma mahiyyəti daşıyan “həqiqi İslam” adı ilə meydana gələn hərəkat və cərəyanların Azərbaycan dinşünaslığında klassik və müasir mənbələr əsasında kompleks şəkildə ilk dəfə öyrənilməsi ilə izah etmək olar. Dürdanə Cəfərli mövzunun araşdırılma tarixində elmi yeniliyə imza ataraq ilk dəfə olaraq fərqli zaman və məkan intervalında qurançılıq hərəkatlarının ideoloji transformasiyasını, onları birləşdirən və ayıran cəhətləri öyrənmişdir.

**Tədqiqat işinin konkret yenilikləri:**

- Müxtəlif xarakterli çoxsaylı materialların toplanması,

sistemləşdirilməsi və təhlili əsasında ilk dəfə olaraq "həqiqi İslam" nəzəri konsepsiyasının təhlili verilmişdir;

- Qurançılıq təfəkkürünün təşəkkül tarixi mərhələli şəkildə araşdırılmış və təsnif edilmişdir.
- Erkən islam dövründə Quranla kifayətlənmənin ilkin təzahür formaları və onları yaradan faktorlar və qurançılıq təfəkkürünün formalaşmasında bəzi məzhəblərin təsir imkanı təhlil edilmişdir.
- Qurançılıq hərəkatına həm Avropa şərqşünaslarının, həm Yaxın və Orta Şərq alimlərinin və islamşünaslarının, eyni zamanda müsəlman ilahiyyatçı alimlərinin yanaşması açıqlanmış və bu üç yanaşma arasındakı ziddiyyətlərin səbəbinin elmi təhlili verilmişdir.
- Nəzəri konsepsiya tədqiq edilmiş, əsas müddəalarının hər birinin elmi-tənqidi təhlili aparılmışdır.
- Müxtəlif müsəlman ölkələrində qurançılar cərəyanının əsas təmsilçilərinin fikirləri öyrənilmiş və onların ideyalarının yayılma tendensiyası araşdırılmışdır.
- XIX əsrin sonu XX əsrin əvəllərində qurançılıq meyllərinin yenidən meydana çıxdığı tarixi şərait və ideoloji mühüt xüsusi vurğulanmışdır.
- Qurançılıq meyllərinin tarixi xronologiya və coğrafi areal üzrə tədqiq edildiyi bu elmi işdə qurançılıq ideyalarının müsəlman dünyasının ayrı-ayrı bölgələrində təşəkkül formalarının xarakterik xüsusiyyətləri arasında müqayisə aparılmışdır.
- Müasir dünyada qurançılar cərəyanının yayılma tendensiyası, mərkəzləri və internet resursları araşdırılmışdır.

**Tədqiqatın mənbəşünaslıq bazası:**

Dissertasiya işi bir sıra sənədli mənbələr, elmi əsərlər və monoqrafiyalar əsasında yazılmışdır. Həmin əsərləri əsasən, aşağıdakı qruplara bölmək olar:

- elmi ədəbiyyat
- internet resursları
- beynəlxalq əhəmiyyətli konfrans materialları

Mövzunun kompleks şəkildə işlənilməsi ilk təcrübələrdən olsa da onun ayrı- ayrı hissələri həm Avropa şərqşünasları, həm də Şərq ölkələri tədqiqatçıları tərəfindən araşdırılma obyektinə çevrilmişdir.

Tədqiqat işinin hazırlanmasıında həmin elmi araşdırmalardan geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:**

“Həqiqi İslam” adı ilə meydana gələn hərəkat və cərəyanların hər birinin əsl mahiyyətini doğru və düzgün şəkildə aşkar etməк, Azərbaycanda yayılma metodunu və tarixini izləmək, bununla yanaşı onların milli ənənələrimiz və mənəvi dəyərlərimizlə nə qədər uyğunluq təşkil etdiyini və ya tam əksinə, nə dərəcədə ziddiyyət və təzad təşkil etdiyini təsbit etmək baxımından faydalı ola bilər.

Dissertasiya işinin əsas müddəaları və nəticələri aşağıdakı hallarda tətbiq və istifadə oluna bilər:

- tematik materialların hazırlanması;
- elmi-pedaqoji fəaliyyət sahəsi.

Tədqiqat işinin emi-nəzəri müddəaları dinşünaslıq baxımından islamdaxili cərəyanların tədqiqində bir mənbə kimi istifadə oluna bilər.

Dissertasiya işinin materialları dinşünaslıq elminin tədris olunduğu ali təhsil müəssisələrində mühazirə və seminarlar prosesində, eyni zamanda gələcəkdə bu mövzuda aparılacaq tədqiqat işlərində də faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Din və İctimai fikir tarixi” şöbəsində hazırlanmış, İnstitutun müvafiq şöbələrinin birgə iclasında müzakirə olunmuş və müdafiəyə buraxılmışdır.

Dissertasiyanın əsas məzmunu müəllifin müxtəlif elmi məcmuələrdə çap etdirdiyi məqalələrində, ölkə daxilində və xaricində keçirilən beynəlxalq səviyyəli elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Din və İctimai fikir tarixi” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi:** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya

Komissiyası tərəfindən qoyulan tələblərə uyğun şəkildə yazılmışdır. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Problemin mahiyyətinin və öyrənilmə dərəcəsinin açıqlandığı dissertasiyanın giriş hissəsində tədqiqatın məqsəd və vəzifələri göstərilmişdir. Bu bölümdə dissertasiyada istifadə edilmiş mənbələrin ümumi təsnifatı verilməklə, tətbiq edilən elmi metod, elmi yeniliyi, nəzəri, praktiki əhəmiyyəti, aprobasiyası və strukturu haqqında da məlumat öz əksini tapır. Birinci fəsil **"Quranla kifayətlənmə və onun tarixi aspektləri"** adlanır. Həmin fəslin **"Erkən İslam dövründə Quranla kifayətlənmənin ilkin təzahürləri və onu yaradan faktorlar"** adlanan birinci yarımfəslində müəllif qurançılıq ideyasının tarixi mənşəyi, onun erkən islam dövründə ilkin təzahür formalarının xüsusiyyətləri üzərində ətraflı dayanmışdır. Bəzi tarixi mənbələrə istinadla Quranla kifayətlənmə ideyasının ilkin təzahürlərinin İslam peyğəmbərinin həyatının son illərinə gedib çıxıldığını qeyd edən dissertant bu tendensiyanı xronoloji ardıcıllıqla araşdırmışdır. Dissertant Quranla kifayətlənmə və sünnənin rolunun azaldılmasına dəlalət edən məqamların ən geci II hicri əsrdən başlayaraq yazılı mənbələrdə əks olunduğunu da qeyd edir. Dürdanə Cəfərli bu arqumentin ən bariz nümunələri olaraq Mamər ibn Raşid (v. 153\770) və İdris ibn Şafei (v. 204\820) kimi alimlərin əsərlərini göstərir.

Daha sonra hədislərə qarşı inamsızlıq meyllərinin coğrafi mənşəyinə toxunan müəllif qeyd edir ki, bəzi müasir tədqiqatçılar belə tendensiyaların daha çox İraq və İraqətrafı bölgələrdə baş qaldırması fikrini irəli sürmüşlər. Hədis inkar etdiklərini təsbit etdiyimiz ayrı-ayrı şəxslərin İraqdan deyil, İraq xaricindən olması hədis inkarçılarının yalnız İraq ətrafından çıxmadığını göstərir. Lakin İraq ərazisinin tarıx boyunca rəyçilərlə assosiasiya olması və rəyçilərlə hədisçilər arasında ardı-arası kəsilməyən mücadilənin var olması tədqiqatçıları bu qənaətə gəlməyə sövq etmişdir.

**“Xaricilik və mötəzilə məzhəblərinin hədisə münasibəti”** adlanan ikinci yarımfəsildə müəllif bildirir ki, İslam tarixində hədis inkarçılığı və sünnəyə qarşı çıxmaq məsələsi əsasən iki qrupun, mötəzilə və xariciliyin adı ilə sıx assosiasiyada hallanır. Məhz buna görə də, ikinci yarımfəsildə xaricilik, mötəzilə məzhəbinin qeyd olunan məsələlərə olan münasibəti yaxından araşdırılır və həmin iddiaların nə dərəcədə əsaslı olduğu aydınlaşdırılmağa çalışılır. Hədislərin hamısına və ya böyük bir qisminə qarşı çıxma düşüncəsinin İslamın ilkin dövrlərindən bəri formalaşmasına rəğmən, tarixi prizmada belə yanaşmanın əsasının hansı qruplar tərəfindən qoyulduğu tam şəkildə müəyyən edilmədiyi vurğulanır. Belə ki, bir qrup alim bu düşüncənin ilk tərəfdarlarının mötəziləyə mənsub olduğu fikrinini irəli sürsə də, digər tədqiqatçılar bununla razılaşmayaraq bu məsələdə xaricilərin əsas rol oynadığını qeyd edirlər.

İbadiyyə firqəsi istisna olmaqla xaricilər hamısı icma və sünnənin şəri mənbə olmasını qəbul etməyiblər. Onlar belə hesab ediblər ki, Quranda qeyd edilməyən heç bir şəri hökm doğru hesab edilə bilməz. Onlar digər müsəlmanlardan fərqli olaraq sünnə və icmanı hüccət qəbul etmədiklərinə görə, xaricilərin bəzi şəriət hökmləri də digər müsəlmanların şəriət hökmlərindən fərqlənir.

Müəllifə görə, ümumiyyətlə mötəzilə məktəbinin hədisi qəbul etmə mövzusunda fərqli fikirlərinin olduğuna, hətta içərilərində Nazzam və Əbul Huzeyl kimi şəxslərin də varlığına baxmayaraq mötəziləyə tamamilə hədis və sünnə inkarçısı olaraq yanaşmaq doğru deyil. Digər tərəfdən mötəzilə bir kəlam məktəbi olaraq rasionalizmi əsas aldığından, onun tərəfdarları hədislərə qarşı bir qədər ehtiyatlı davranmış və əsərlərində daha az hədisdən istifadə etmişlər.

Daha sonra müəllif ümumiləşdirmə apararaq qeyd edir ki, erkən İslam dövründə hər hansı bir müsəlman firqə tərəfindən yalnız Quranı əsas alaraq dində və dini hökmlərin təyinində Qurandan başqa heç bir mənbəyə müraciət edilməməsi və sünnənin qaynaq statusunda dəyərinin bütünlüklə inkar olunması kimi bir hala rast gəlmək mümkün deyildir.

Fəslin üçüncü yarımfəsli **“Quranla kifayətlənmə erkən yazılı mənbələrdə”** adlanır.

Müasir dövrdə hədis və sünnə ətrafında baş verən müzakirələrin, bəzi aspektlərdən baxıldıqda İslamın ilk illərindəki bu mövzuda cərəyan edən müzakirələrdən çox da fərqli olmadığını görürük. Bunun ən bariz nümunəsi İbn Quteybənin (v.276/889) “Təvilu Muxtəlifil Hədis”[12] adlı əsəridir. Həmin dövrə qədər hədis və sünnə ətrafında cərəyan edən mübahisələrin sanki xülasəsi təsəvvürü yaradan bu əsər hədis və sünnənin Qurana nisbətdə yeri və mövqeyi, hədislərin təyin edilməsində gərəkli olan əsas prinsiplər, Quranla, tarixi hadisələrlə, elmi həqiqətlərlə, ağıl və məntiqlə ziddiyyət təşkil edən bəzi hədislər, uydurma rəvayətlər və sairə kimi mövzulardan bəhs edir.

Şəri hökmlərin qaynağını Quranla məhdudlaşdırma və hədisin dini hökmlərn verilməsi üçün qaynaq olma mövzusundakı çəkişmələri əks etdirən ilkin yazılı mənbələrdən biri Məhəmməd ibn İdris Şafeinin (v.204/820) “Kitab Cima əl-ilm” və “Risalə” adlı əsərləridir.[13]Bu kitabların müvafiq fəsillərində Şafei hədisin dini hökmlərin mənbəsi kimi roluna və hədisə qarşı çıxanların fikirlərinə yer vermişdir.

Şafeidən sonra gələn müəlliflər, o cümlədən ibn Quteybə (v.276/890) mətnlərinin zəif olması səbəbindən hədisə qarşı mövcud olan müxalifətdən bəhs edir. Şafei həm bütün hədislərə qarşı və həm də yalnız müəyyən qrup hədislərə qarşı çıxanların arqumentlərinə cavab verirdisə, ibn Quteybənın əsərlərindən onun opponentlərinin hansı növ hədis tənqidçiləri olduqları tam aydın olmur. Kitabın əvvəlində ibn Quteybənin dövründə müəyyən növ hədislərə qarşı çıxan müxtəlif qruplardan bəhs olunsa da, onların əsas arqumentləri sadalanmır.[14]

İbn Quteybənin “Təvil muxtəlif əl-hədis” əsərindən təxminən iki əsr sonra və Şafeinin “Kitab Cima əl-İlm” kitabındasa iki əsr yarım sonra yazılmış əl-Xətib əl-Bağdadinin “Taqyid əl-İlm”

---

[12] ابن قتيبة،عبدالله بن مسلم، تأويل مختلف الحديث، بيروت، دارالكتب العلميه، بدون تاريخ الإصدار
[13] الشافعي، محمد بن إدريس، احمد محمد شاكر، الرسالة، قاهرة، ١٩٤٠
[14] ابن قتيبة،عبدالله بن مسلم، تأويل مختلف الحديث، بيروت، دارالكتب العلميه، بدون تاريخ الإصدار

əsərində biz bir daha Qurana paralel və mümkün rəqib mənbə kimi hədisə qarşı çıxmaq məsələsinin qaldırıldığını görürük.[15]

Fəslin dördüncü yarımbaşlığı **“Qərb islamşünaslığında hədis tədqiqatları”** adlanır. Ümumilikdə hədislə bağlı mövcud tədqiqatlara nəzər saldıqda bu sahədə aparılan araşdırmalarda hədisin legitimliyi mövzusuna deyil, daha çox hədisin səhihliyi məsələsinə xüsusi diqqət yetirildiyini görürük. Hədisin istər müsəlman və istərsə də qeyri-müsəlman alimləri tərəfindən tədqiqində məqsəd legitimlik məsələsi deyil, hədisin səhihliyi probleminin həlli olmuşdur.

Jozef Şaxt və G.H.A Caynboll kimi Qərb şərqşünasları da mətni və tarixi mühiti əsas gətirərək peyğəmbər hədislərinin çoxunun hicrətdən sonrakı II-III əsrlərdə icad edildiyi və arxa tarixə çəkilərək peyğəmbərə, onun səhabələrinin adına çıxıldığı fikrini bölüşmüşlər.[16] Digər qrup Qərb islamşünasları isə, o cümlədən Fuat Sezgin, Nabiə Abbot və Mustafa Əzəmi bu tənqidi yanaşmanı sual altına alaraq, əsassız adlandırmış və əsərlərində göstərmişlər ki, hədis ən erkən müsəlman cəmiyyətinin məhsuludur, peyğəmbərin və səhabələrinin həyatda olduğu dövrdə yazıya köçürülmüşdür.[17]

Daniel Braun isə “Rethinking tradition in modern Islamic thought” (Müasir İslam düşüncəsində hədisin yenidən nəzərdən keçirilməsi) əsərində hədisin legitimliyi məsələsini qaldırır.[18]

Müasir qurançılıq məsələsinin hədis barədə tarixi polemikalarla bir kontekstdə nəzərdən keçirildiyi əsərlərdən biri A. Musanın “Hədis yazılı mənbə kimi: peyğəmbər hədislərinin Islamda

---

[15] البغدادي أبى بكر أحمد بن على بن ثابت الخطيب، تقييد العلم، تحقيق يوسف العش، دار إحياء السنة النبوية، دمشق، ١٩٧٤

[16] Coulson N.J. “European criticism of hadith literature” in Arabic Literature to the End of the Umayyad Period ed. A.F.L. Beeston, T.M. Johnstone, R.B.Serjeant,G.R.Smith, Cambridge:Cambridge University Press, 1983, 317 p. https://doi.org/10.1017/CHOL9780521240154.015 p317

[17] Sezgin Fuat, Geschichte des Arabischen Schrifttums. Band I (Leiden: E.J.Brill, 1967) p. 936p.; Abbott Nabia, Studies in Arabic literary and papyri II: Qur’anic commentary and tradition. Chicago: The University of Chicago Press, 1967, p.49

[18]Brown W.Daniel, Rethinking tradition in modern Islamic thought. Cambridge, Cambridge University Press, 1996. 185p.

legitimliyi haqqında diskussiyalar” (Hadith as scripture: discussions on the authority of prophetic traditions in Islam) kitabıdır.[19] Müəllif əsərdə erkən dövr hədis müxalifləri ilə onların müasir dövr həmfikirlərinin qarşılıqlı müqayisəsini aparır. O, erkən dövr mənbələrindən daha çox Şafei, ibn Qutəybə və əl-Xətib əl-Bağdadinin əsərləri üzərində dayanır.

**“Qurançılar cərəyanı “həqiqi islam”ın təzahürü kimi”** adlı ikinci fəslin **“Qurançılığın yarandığı tarixi şərait”** adlanan birinci yarımfəslində müəllif qurançılıq hərəkatının müxtəlif müsəlman ölkələrində geniş vüsət almasını şərtləndirən tarixi, siyasi və ideoloji səbəbləri öyrənməyə çalışır. Bu məqsədlə Dürdanə Cəfərli mövcud elmi ədəbiyyata əsaslanaraq, Quranla kifayətlənmə ideya tərəfdarlarını ideoloji və siyasi parametrlər üzrə qruplaşdırmaqla, onları ayrı-ayrılıqda təhlil edir. Müəllif qurançılar çərəyanını onun ideya rəhbərlərinin yaşadığı dövrdən, həmin dövrdə hakim ictimai-siyasi proseslərdən əlahiddə bir şəkildə öyrənməyi düzgün hesab etmir və o, əksər tədqiqatçıların bu hərəkatın təşəkkül tapması və inkişafını bilavasitə həmin tarixi dövr və proseslərlə bağlı olduğunu qeyd etmələrini təsadüfi saymır. Ümumiyyətlə, bir çox məqamlarda Avropa və müsəlman ölkələrindən olan alimlər arasında qurançılar cərəyanının meydana gəlməsinin motivləri məsələsində ortaq fikirlər olsa da, bir sıra prinsipal məsələlərdə onlar diametrik şəkildə əks mövqedə dayanırlar. Müəllif dissertasiyada ümumiləşdirmə apararaq bu hərəkatla bağlı olan fikirləri üç qrupa bölür.

Fəslin ikinci yarımfəsli **“Qurançılar – ifrata vararaq yolundan azmış islahat hərəkatı”** adlanır. Qurançıların əslində dində islahat məqsədi ilə meydana çıxan, lakin müxtəlif amillərin təsiri ilə ifrata vararaq yolundan azan bir cərəyan kimi nəzərdən keçirildiyi bu yarımfəsildə, XIX əsrdə islam dünyasında hökm sürən ideoloji-siyasi deqredasiya və iqtisadi tənəzzül kimi faktorların müsəlman ölkələrində mövcud dəyərlər sistemini yenidən nəzərdən keçirmə meyllərini sürətləndirdiyi xüsusi olaraq qeyd olunur. Müəllif bir qrup müsəlman alimlərinin bu fikri müdafiə etdiklərini

---

[19] Musa Y. A. Hadith as a scripture: discussions on the authority of prophetic traditions in Islam, New York, Palgrave Macmillan, 2008, 208 p.

və qurançıları öz iddialarında çox uzağa gedərək həqiqi məramlarından uzaqlaşan qrup olaraq gördüklərini vurğulayır. Tədqiqatda qurançılar cərəyanının təmsilçilərinin ihya hərəkatından ruhlandıqlarını və bu hərəkatın təsiri altında ortaya çıxdıqları göstərilib. Bu bölümdə Cəmaləddin Əfqani və Məhəmməd Əbduha qarşı qurançılıq və yaxud da sünnəni inkar etmə ittihamlarına toxunulur və belə bir təsəvvürün yaranmasının kökündə onların bəzi hədislərə tənqidi yanaşması, xüsusilə də israiliyyat barədə olan hədisləri, hədis məcmuələrinə, Səhih Buxari və Səhih Muslim kimi hədis toplularına səhih olmayan hədislərin yol tapmasını tənqid etmələrinin dayandığı göstərilir. XIX əsr ihya hərəkatının banilərindən olan Cəmaləddin Əfqani və tələbəsi Məhəmməd Əbduhun hədis inkarçısı və ya qurançı kimi təqdim edilməsinin yanlış olduğu qənaətinə gələn müəllif onların məqsədlərinin sünnəni inkar etmək deyil, müsəlmanların hədis mirasında islahat aparmaq olduğunu bildirir. D.Cəfərli onlardan fərqli olaraq Misirdə Tofiq Sidqidən, Hindistanda Çekraləvidən başlayan hərəkatın təmsilçilərinin isə sünnənin artıq tamamilə istinad qaynağı olaraq kənara qoyulmasına çağırışlar etdiyini və fərqli, yeni bir islam anlayışı formalaşdırmağa cəhd göstərdiklərini bildirir.

Fəslin üçüncü yarımfəsli **“Qurançılar – İslam dünyasının dini islahat hərəkatı”**adlanır. Bir çox müsəlman ölkə alimlərindən fərqli olaraq Avropa şərqşünasları qurançılar cərəyanını Avropa müstəmləkəçiləri və missioner qurumlarının fəaliyyətindən daha çox, müsəlman dünyasının daxilindəki proseslərin məntiqi yekunu və İslam dinində islahatçı cərəyan qismində meydana çıxan bir hərəkat kimi təqdim edirlər. Onların fikrincə, bu ideyanın tərəfdarları əslində bütün tarixi dövrlərdə müsəlman cəmiyyətlərində mövcud olmuş, sadəcə müxtəlif ictimai-siyasi faktorların təsiri ilə zaman-zaman marginallaşmış, gah da yenidən aktuallaşa bilmişlər. Bu bölümdə qurançıların İslam dininin həqiqi islahatçıları kimi dəyərləndirilməsinə dair mülahizələr təhlil edilir.

**“Qurançılar – Qərb müstəmləkəçiliyinin məhsulu”** adlanan üçüncü yarımfəsildə qurançıların bir Qərb müstəmləkə siyasətinin məhsulu olması haqqında mülahizələr araşdırılır. Əsasən müsəlman

ölkə tədqiqatçıları və alimləri bu qrupu İslam dini ilə əlaqəsi olmayan, müstəmləkəçi dövlətlərin, missioner qurumların müsəlman dövlətlərində mövqelərinin güclənməsi məqsədilə dindən istifadə etməklə yaratdıqları və istiqamətləndirdikləri bir qrup kimi dəyərləndirirlər. Müəllif bu qəbildən olan yanaşmaların müqayisəli təhlilini apararaq belə qənaətə gəlir ki, bu cərəyanların müsəlman ölkələrində sürətlə inkişafında Avropa siyasi dairələrinin və xristian missioner qurumlarının böyük rolu olmuşdur.

Üçüncü fəsil **"Quranҫılar cərəyanının əsas prinsipləri və onun müasir təmsilçiləri"** adlanır. Bu fəslin **"Quranҫılığın əsas prinsipləri"** adli birinci yarimfəslində müəllif quranҫılıq cərəyanının ənənəvi İslam məktəblərindən fərqli düşüncə və arqumentlərini konseptual və praktiki sahələr olmaqla iki qrupa bölür. Konseptual sahəyə aid ən mühüm fərqli məsələlər kimi hədisin Quranla bərabər dini hökmlərin ikinci mənbəsi olması fikrinin inkar edilməsini, Quranın şərhində sünnəyə və ya digər mənbələrə ehtiyac olmaması və bütün dini məsələlərin Quranda əks olunması fikrini qeyd edir. Praktik kontekstdə isə Quranın hədislərsiz, Quranın digər ayələrindən istifadə etməklə gəlinən fərqli nəticələri və qeyri-ənənəvi dini hökmləri göstərir.

Quranҫılıq tərəfdarlarının fikrinə görə, bir müsəlman üçün lazım olan əsas məsələlər tam xırdalıqlarına kimi Quranda var və dini hökmləri əldə etmək üçün Quran kifayət edər, buna görə də başqa heç bir mənbəyə ehtiyac qalmır. Bu məqam Abdullah Çəkraləvinin əsərlərində daha aydın şəkildə özünü göstərir: "Kitabi-məciddə dinin ehtiyacı olan hər bir şeyi ətraflı və hər baxımdan müfəssəl, geniş şəkildə qeyd edilmişdir. Belə olan halda, örtülü vəhyə və sünnəyə nə ehtiyac var?" fikrini inkişaf etdirən Çəkraləvi daha sonra yazır: "Allahın kitabı kamil və müfəssəldir, peyğəmbərin şərhinə, təfsirinə və onun izah etməsinə və yaxud Qurana uyğun əməli təlimlərinə ehtiyac yoxdur".[20]

XX əsr quranҫıların başqa bir tanınmış nümayəndəsi Hafiz Əsləm də dində yalnız Quranda qeyd edilənlərin zəruri olması fikrini müdafiə edir. "Dinin zəruri əməlləri müfəssəl izah olunmuş Qurana

[20] الهي بخش، خادم حسين، القرآنيون و شبهاتهم حول السنة، طائف مكتبة الصديق١٤٢١ ه. ، ص ٢١٠

tabe olmaqdır və bundan daha irəli getmir" – deyə Əsləm yazır [21]. Oxşar məqamlara Tofiq Sidqi və Mahmud Əbu Reyyənin əsərlərində də rast gəlinir.

Fəslin ikinci yarımfəsli "**Ərəb ölkələrində Quranćılıq və onun əsas təmsilçiləri**" adlanır. Ərəb ölkələrində quranćılıq cərəyanının inkişaf tendensiyaları həm ümumən İslam dininin daxilində cərəyan edən proseslər və həm də bu təlatümlü dövrdə Ərəb dünyasının siyasi inkişaf dinamikası ilə sıx bağlı olmuşdur. Bu başlıq altında ərəb ölkələrində quranćılar cərəyanının Rəşad Xəlifə, Əhməd Sübhi Mənsur, Əbu Reyyə, Məhəmməd Şəhrur, Mustafa Kamal Məhdəvi, İbn Qərnas kimi ən tanınmış nümayəndələri və onların irəli sürdükləri müddəalar ayrı-ayrılıqda araşdırılmışdır.

**"Hindistan və Pakistanda müasir dövr Quranćılar hərəkatları"** başlıqlı üçüncü yarımbaşlıqda müəllif Xadimhüseyn İlahibəxşə istinadən qeyd edir ki, müasir dövrdə Hindistan və Pakistanda dörd əsas quranćılar təşkilatı fəaliyyət göstərir. Öz aralarında bir sıra məsələlər ətrafında fikir ayrılıqları olsa da, onları birləşdirən prinsipial məqamlar dünya və axirət məsələlərində yalnız Quranla kifayətlənmək və peyğəmbər sünnəsinin mötəbər hesab edilməməsidir.

Pakistanda quranćılarla bağlı müxtəlif firqələrin fəaliyyəti ilə əlaqədar bir önəmli faktı qeyd etmək lazımdır ki, müxtəlif mənbələrin bildirdiyinə görə, onların tərəfdarları bütün ölkə əhalisinin 3%-dən çox deyil. Pakistan müstəqilliyini qazandığı ilk illərdə Qadyanilər və Quraniyyun firqələrinin nümayəndələrinin çoxu ölkədə çox mühüm postlar tutmuşlar. Bunun nəticəsi kimi isə, həmin dövrlərdə quranćıların fəaliyyətində nəzərəçarpacaq aktivləşmə olmuşdur. Bununla belə, sonrakı illərdə Şam, Misir və digər müsəlman ölkələrinin din alimləri quranćıların banisi Pərvizin fikirlərinə qarşı çıxmış və onun kafir olmasına dair fitva vermişlər.

**"Türkiyədə müasir Quranćılıq"** mövzusu üçüncü fəslin dördüncü yarımfəslində araşdırılıb. Müəllif Türkiyədə quranćılar cərəyanının məşhur simalarının ideya və mövqelərini təhlil edərkən onların çoxunun İslam dinini sekulyarizmlə barışdırmaq, Quran

---

[21] الهي بخش، خادم حسين، القرآنيون و شبهاتهم حول السنة، طائف مكتبة الصديق،١٤٢١ ه. ، ص ٢١١

ayələrini qeyri-ənənəvi aspektdən izah etmək və Qərbdən özünütədricə qarşı çıxmaq kimi xüsusiyyətlərə sahib olduğunu qeyd edir.

Türkiyədə din-dünyəvilik məsələlərinə gəlincə həmin ölkədə qurançılığın ideya qaynağı olan dində islahatlar mövzusu müəyyən dairələrdə yayılmış ümumi polemika səviyyəsindən uzağa gedə bilməmişdir. Həmin bölümdə gəlinən nəticəyə görə. müasir dövrdə qurançılıq ideyası geniş xalq kütlələrinə aid olmayan, daha çox müəyyən intellektual dairələrə xas tematik mövzu təsiri bağışlayır və onların dini, ictimai və siyasi həyata təsiri hiss olunmur.

Fəslin beşinci yarımfəsli **“Digər müsəlman ölkələrində Qurançılıq və qurançıların internet resursları, ictimai-siyasi təşkilatları”** adlanır. Burada XIX əsrdən fərqli olaraq müsair dövrdə qurançılıq fikirlərinin, xüsusilə də internet resursları vasitəsi ilə daha surətlə yayılmağa başladığı və Ərəb ölkələri, Pakistan, Hindistan, Türkiyədən başqa Malayziya, ABŞ, Nigeriya kimi digər ölkələrə də sirayət etdiyi qeyd olunur.

Post-Sovet məkanında qurançılıq ideyaları Qazaxıstanda geniş yayılmışdır. Qurançılığın bu ölkədə yayılmasının siyasi zəmini kimi ölkə rəhbərliyinin Qazaxıstanda yayılmaqda olan qeyri-ənənəvi dini cərəyanlara qarşı həmin ideyalardan profilaktik tədbir kimi istifadəsi göstərilir. Qazaxıstan Qurançılarının dində ruhaniyyət adlı təbəqəni qəbul etmədiklərini, Quranda birbaşa yasaq olmadığını söylədiklərinə görə spirtli içkilərin və narkotik maddələrin qəbulunu da məqbul saydıqları qeyd edilir.

Əgər XX əsrin əvvəllərində qurançılıq tərəfdarları fikirlərinin yayılması üçün həmin dövrdə populyar mətbuat orqanlarından, özlərinin nəşr etdirdikləri kitab və jurnallardan daha çox faydalanırdılarsa, bu gün dünyada qurançılar öz ideya və düşüncələrini daha çox internet resursları vasitəsi ilə yaymağa üstünlük verirlər.

Müəllif qurançılarla bağlı internet resursların kontekstual analizinə baxdıqda internet istifadəçiləri arasında qurançılıq tərəfdarlarının sayının artdığını, virtual məkanda bu mövzular ətrafında əsasən qeyri-mütəxəssislər arasında mütəmadi müzakirələr

getdiyini xüsusi qeyd edir.

**“Müasir dövr şiə qurançılar”** başlıqlı altıncı yarımbaşlıqda şiə müsəlmanlar arasında dini vəziyyətin yenidən nəzərdən keçirilməsi meyillərinin XIII əsrin ikinci yarısına gedib çıxdığı bildirilir. İstər dini və istərsə də qeyri-dini mənşəyi olan bu hərəkatların hərəkətverici qüvvəsi Qərb ölkələrinin sürətli inkişafı və onların müsəlman dünyasında artan ekspansionizmi olmuşdur. Belə cərəyanlardan biri də müsəlman dünyasında birlik yaradılması, Qurana dönüş, İslamın ilk 40 ilində hakim olmuş qızıl dövrün bərpa edilməsi kimi şüarlarla çıxış edən şiə qurançılar hərəkatı olmuşdur.

Tədqiqatlar son onilliklərdə şiə məzhəbinin din alimləri arasında, eləcə də elmi dairələrində hədisin statusu və hədis irsinin yenidən nəzərdən keçirilməsi ilə bağlı yeni fikirlərin irəli sürüldüyünü və bu sahədə elmi əsərlərin yazıldığını göstərir. Lakin, bu kimi hərəkatlar sünni məzhəbindəki qurançılıq meyllərindən həm dinamikasına, həm də yaranma sahəsinə görə fərqlənir. Belə tələblərlə çıxış edən alim və mütəxəssislərin əsas məqsədi hədis mənbələrinin yenidən nəzərdən keçirilməsi, səhih hədisləri ayırd etmək üçün istifadə edilən ənənəvi metodlardan əlavə yeni metodologiya tətbiq edilməsi olmuşdur.

Dissertasiyanın üçüncü fəslinin sonuncu yarımfəsli “**Qurançıların əsas prinsipləri arasındakı fikir ayrılıqları”** adlanır. Burada göstərilir ki, qurançılar cərəyanının müxtəlif təşəkkülləri ilə həm digər müsəlmanlar arasında və həm də öz aralarında bir sıra məsələlər ətrafında dərin fikir ayrılıqları vardır.

Bu bölümdə Dürdanə Cəfərli müasir qurançılarla onların XIX əsr xələflərinin fikirləri və irəli sürdükləri ideyaların oxşar və fərqli cəhətləri üzərində xüsusi dayanır. Müəllif nominal olaraq eyni ideoloji mənbədən qaynaqlanan klassik və müasir qurançılıq cərəyanlarının iki əsrlik tarixi transformasiyanın nəticəsi olaraq bir çox dini və ictimai məsələlərdə bir-birinə diametrik əks istiqamətdə dayandıqlarını vurğulayır.

**Dissertasiyanın nəticə hissəsində tədqiqata yekun vurulmuş və aşağıdakı nəticəyə gəlinmişdir :**

1- "Həqiqi islam" adı ilə çıxış edən hərəkatların keçdiyi tarixi yolu və müasir proseslərin araşdırıldığı dissertasiyanın materiallarından bu hərəkatın ümumilikdə əsas məqsədlərinə çatmadığı qənaətinə gəlmək olar.
2- Müsəlman dünyasını durğunluq və tənəzzüldən xilas etmək məsələsini qarşısına məqsəd qoyan islahatçı hərəkatların bir parçası kimi meydana gələn qurançıların fəaliyyəti İslam aləmində fikir haçalanması və bölünməni daha da dərinləşdirmiş oldu.
3- XIX əsr ihya hərəkatının banilərindən olan Cəmaləddin Əfqani və tələbəsi Məhəmməd Əbduhun hədis inkarçısı və ya qurançı kimi təqdim edilməsi doğru yanaşma deyil, onların məqsədləri sünnəni inkar etmək deyil, daha çox müsəlmanların hədis mirasında islahat aparmaq olmuşdur. Onlardan fərqli olaraq Misirdə Tofiq Sidqidən, Hindistanda Çekraləvidən başlayan hərəkatın təmsilçilərinin isə sünnənin artıq tamamilə istinad qaynağı olaraq kənara qoyulmasına çağırışlar etdiyini və fərqli, yeni bir islam anlayışı formalaşdırmağa cəhd göstərdiklərini görmək mümkündür.
4- Yarandığı ilk dövrlərdən, yəni XIX əsrin sonlarından etibarən qurançılıq ideyaları müsəlman cəmiyyətində birmənalı qarşılanmamışdır. Bu, bir tərəfdən onların uzunəsirlik müsəlman elmi-mədəni mirası, hədis və sünnəni hədəfə almaları ilə bağlı idisə, digər tərəfdən qurançıların Qərbdəki elmi-sənaye inkişafından təsirlənərək Qərb və İslam dəyərləri arasında uzlaşma yaratmaq cəhdlərindən qaynaqlanırdı.
5- Qurançılıq meyillərinin tarixi xronologiya və coğrafi areal üzrə tədqiq edildiyi bu elmi işdə onların müasir Hindistan və Pakistanda XIX və XX əsrin ilk yarısında müəyyən periodlarda nisbi populyarlıq qazandığını, digər müsəlman ölkələrində elə də tanınmadıqları, marginal bir trend halına gəldiklərini görmək mümkündür. Ərəbdilli ölkələrdə, xüsusilə

də Misirdə XX əsrin əvvəllərində qurançılar dində islahat hərəkatlarının bir parçası kimi siyasi-ictimai proseslərə qoşulmuşlar. Digər müsəlman ölkələrində, o cümlədən Türkiyədə qurançıların nisbi fəallaşması isə XX əsrin ikinci yarısına təsadüf edir.

6- XIX əsrin sonlarından XX əsrin ilk yarısınadək olan dövr Qurana çağırış hərəkatları ilə sonrakı dövr qurançılıq cərəyanları arasında həm ideoloji və həm də siyasi müstəvidə əsaslı fərqlər meydana çıxmışdır. Hər ikisinin tək ortaq cəhəti Qurana çağrış məsələsidir. Qurana çağırış hərəkatları daha çox İslam dinini əsası olmayan hədislərdən, kök atmış bidətlərdən təmizləməyə çağırsalar da, ənənəvi islam dünyagörüşündən kəskin fərqlənən mövqedən çıxış etməmişlər. Qeyd olunduğu kimi, qurançılar isə yalnız Quranı əsas tutmağa çağırmaqla qalmamış, başda sünnə və icma olmaqla şəri hökmlərin qaynaqlarını tamamilə və ya qismən rədd edən yanaşmaları ilə Qərbin siyasi, ictimai və fəlsəfi axınlarının təsiri ilə, İslamı modernizmin dəyərləri ilə uzlaşdırmağa çalışmış və beləliklə İslamdan fərqlənən yeni din anlayışı formalaşdırmağı hədəfə almışlar. Bu baxımdan, başda fiqh üsulu olmaqla, kəlam və fiqh elminə, həmçinin İslamın necə anlaşılması haqqında ümmətin əxz etdiyi ənənəyə tənqidi yanaşmış, bunun müqabilində isə Quranın sərbəst modern tərzdə oxunub şərh olunmasını önə çəkmişlər.

7- Müasir dövr qurançılar dinin bəzi əsas atributlarını, o cümlədən qadınların baş örtüsü olmadan namaz qılması, qadınların örtünməsinin ümumiyyətlə vacib olmaması, qadınların kişilərə namazlarda imamlıq etməsi, namazı hər bir şəxs öz dilində qılması və s. bu kimi məqamları irəli sürməklə geniş müzakirələrə səbəb olmuşlar. Qurançıların bəzi şaxələri hətta müsəlmanların üzlərini Məkkəyə deyil, Qüdsə tərəf tutaraq namaz qılmalı olması haqqında iddialarla çıxış etmişlər. Bütün bu hallar onların opponentləri tərəfindən qurançıların bir Qərb layihəsi olması, onların bir çox müstəbid müsəlman ölkə rəhbərləri tərəfindən alət kimi istifadə

edilmələri, dindən çıxmış olmaları kimi fikirlərin yaranmasına zəmin hazırladı.

8- Müasir qurançılıq ideyalarının bəzi sekulyar müsəlman ölkələri tərəfindən daxili siyasi mübarizələrdə öz siyasi opponentlərinə qarşı istifadə edilməsi də qurançıların müsəlman ölkələrindəki nüfuzuna zərər vuran əsas amillərdən biridir. Bir çox ərəb ölkələrində qurançılıqda irəli sürülən ideyaların bu ölkə rejimləri tərəfindən istifadə edilməsi, qurançıların ənənəvi dini müxalifətə əks düşərgədə mövqe tutması belə mülahizələrin irəli sürülməsinə səbəb olmuşdur.

9- Bu gün ötən əsrlərdən fərqli olaraq qurançıların öz ideyalarını istər elektron, istərsə də çap materialları vasitəsilə yaymaqda ənənəvi İslam dini məktəbləri ilə bərabər səviyyədə imkanlara malik olsalar da, bu nisbəti onların populyarlığına da şamil etmək mümkün deyil. Qurançılığın müsəlman cəmiyyətlərində özünə geniş sosial baza topladığını, ənənəvi dini mentalitet üçün hər hansı bir şəkildə çətinlik yaratdığını söyləmək mümkün deyil.

10- Qurançılıq cərəyanlarının təmsilçiləri sünnəni dini hökmlərin ikinci qaynağı və Quran ayələrinin izahında bir mənbə kimi rədd etsələr də, alternativ yolu təqdim edə bilməmələrini qeyd etmək lazımdır. Başqa sözlə desək, peyğəmbərə istinad edilən hədsilərə əsaslanmaqla Qurandakı hökmləri izah edən ənənəvi dini institutlarından fərqli olaraq, müxtəlif Qurançı cərəyanlar sünnədən istifadə etmədən yalnız Quranı əldə əsas tutmaqla, hətta namazın rükətlərinin sayı və forması, orucun günləri və vaxtı kimi ən zəruri məsələlərdə belə yekdil fikir irəli sürməyi bacarmamışlar. Qurançılar cərəyanı "yalnızca Quran" ideyası ilə meydana atılsa da, müxtəlif coğrafi məkanlarda, tarixi dövrlərdə yaşamaq, fərqli mədəniyyətlərə sahib olmaq kimi təbii amillərin təsiri ilə bu cərəyanın müxtəlif nümayəndələri Quranın eyni ayəsilə bağlı bir-birindən çox fərqlənən fikirlər irəli sürdüyündən, onların öz arasında, eləcə də qurançılarla ənənəvi dini kəsim arasında uçurum dərinləşmişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. "Quran İslamı" anlayışı və onun islam düşüncəsində yeri/ AMEA. akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Elmi Araşdırmalar, (X), Bakı, 2014, s.367-375
2. "Qurançılar"cərəyanı təfsirlərinin müqayisəli təhlili, Din və dölət ictimai fikir toplusu, Bakı, 11(40), 2015, s.97-105
3. Müasir müsəlman ölkələrində "Quran İslamı" anlayışı haqqında (dini maarifçilik kontekstində), Azərbaycan Milli Elmlər Akademiyası və Qafqaz Müsəlmanları İdarəsi "İslam maarifçiliyi və müasir dövr" adlı beynalxalq konfrans, Bakı, 2015, s.139-151
4. Kur'an Açısından Annenin Çocuk Üzerindeki Etkisi, Sinop Üniversitesi Uluslararası Gençlik ve Ahlak Sempozyumu bildiriler kitabı, Türkiye Cumhuriyeti, Sinop Üniversitesi, İkizler Matbaası, 2016, s. 254-266
5. The historical conditions for the emergence of the Quranist movement in Egypt in the 19th-20th centuries, Язык и культура, Выпуск 20, Том I (186) ISSN 2522-493X, Киев 2017, c. 91-99
6. Müasir dövr müsəlman ölkələrində Quranlıq və onun yayılma tendensiyası, Z.M.Bünyadovun xatirəsinə həsr edilmiş "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda keçirilən beynalxalq elmi konfrans (tezislər toplusu), Bakı, 2017, s.26
7. The rise of the Quranist movement in Egypt ($19^{th}$ to $20^{th}$ centuries): A historical approach, Гилея: научный вестник, Выпуск 126 (11) ISSN 2076-1554, Киев 2017, s.181-185
8. Qutbiddin Razi's approach to wisdom and its functions, Ankara Yıldırım Beyazit Üniversitesi 14.ve 15. yüzyıl Islam düşüncesinde felsefe, kelam ve tasavvuf uluslararası sempozyumu bildiriler kitabı, 13-17 Temmuz 2020, Türkiye Cumhuriyeti, Yıldırım Beyazit Üniversite Matbaası, s.101.

Dissertasiyanın müdafiəsi "08" iyun 2021-ci il tarixində saat 14.00 da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03–Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., Əhməd Cəmil küçəsi 41A, AZ 1141. Azərbaycan İlahiyyat İnstitutu.

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "08" may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.05.2021

Kağızın formatı: A5

Həcm: 37839

Tiraj: 100 nüsxə